

# Yeni Ombudsman məsələsi plenar iclasa tövsiyə olundu

*Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsinə namizədlik məsələsi müzakirəyə çıxarılıb. Bu vəzifəyə Prezident İlham Əliyev tərəfindən Milli Məclisə göndərilən sənəddə 3 nəfərin namizədliyini irəli sürüb.*

Səh.8


# UNİKAL

№51 (1990) 23 noyabr 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev  www.unikal.org  unikal-1@mail.ru




# "Helikopter əhvalatı" Hicran Hüseynovanı çətin vəziyyətdə qoyub

Səh.2



# Mehriban Əliyevanın mühüm Rusiya səfəri...

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri də yola salınır

*Azərbaycanda son vaxtlar daha da sürətlənən kadr islahatları çərçivəsində vəzifəsindən uzaqlaşdırılması gözlənilən vəzifəli şəxslərdən biri də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovadır.*

*Nəzərə alsaq ki, bu kadr islahatları dalğası yalnız yaşlı məmurların təqaüdə göndərilməsi ilə müşayiət olunmur, eyni zamanda adı indiyədək ciddi korrupsiya qalmaqallarına qarışmış iri məmurları da əhatə edir, onda xanım Hüseynova ilə bağlı da yuxarıdakı gözləntinin boş yerə yaranmadığı məlum olar. Məsələ burasındadır ki, üç il öncə onunla bağlı bir iddia ölkə gündəmini xeyli müddət məşğul etmişdi. İddia ondan ibarət idi ki, Hicran Hüseynova 2012-ci ilin yay aylarında Eynur Kərimov ad-soyadlı şəxsin 170 min ABŞ dollar pulunu həmin zaman rəhbərlik etdiyi komitənin aparat rəhbəri olan Səfər İmanovun əli ilə alaraq mənimsəyib və vəd verib ki, onu Bakının rayonlarından birinə icra hakimiyyəti başçısının müavini təyin etdirəcək.*

Səh.12

## "Xalqın müxalif düşərgəyə inamı azalıb"



*Müxalifət qüvvələrinin aktivləşməsi fonunda bu düşərgə ilə bağlı neqativ halların da ortaya çıxması diqqət mərkəzindədir. Belə ki, bir müddət öncəyə qədər onlar daxili çəkişmələrlə gündəmə gəlirdilərsə, son günlər mühacir qalmaqalı polemika mövzusu olub.*

Səh.4

## "Azərbaycan və Rusiya arasında münasibətlər yeni mərhələyə keçib"



*Dünən Moskvada 10-cu Rusiya-Azərbaycan regionlararası forumu işə başlayacaq. Forum çərçivəsində Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Vestnik Kazkaza" saytına Azərbaycan-Rusiya münasibətlərinin vəziyyəti barədə kiçik müsahibə verib.*

Səh.3

## Müxalifətdə yeni qovğa



*Son günlər müxalifət daxilində yenidən gərginlik yaranıb. Xüsusən də Azərbaycan Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədova qarşı əks-təbliğat aparılmaqdadır. Xüsusən də ADP funksionerlərinin Etibar Məmmədovla bağlı tənqidi fikirlər işlətməsi qarşı tərəfin kəskin reaksiyasına səbəb olub.*

Səh.7